

Mustafa Çəmənli

# NƏŞRİYYATLARDA KEÇƏN ÖMRÜM

## (Xatirələr)

**(əvvəli ötən şənbə saylarımızda)**

O, Azaflı Mikayılla, Məzahir Daşqınla, Alqayıtla dostluq edirdi. Bəlkə də mənim gəlişim münasibətilə, Bəhlul əmi həmən o yaz axşamında Məzahir Daşqını gedib evindən qonaq gətirmişdi. Məzahir Daşqın ortaboylu, dolubədənli, qalınqaşlı bir kişiydi. Mən Məzahir Daşqının gəncliyində Səməd Vurğunla dost olduğunu eşitmişdim. Ona birinci və sonuncu sualım da elə bu oldu:

- Məzahir müəllim, eşitmişəm Səməd Vurğunla çox yaxın dost olmusunuz.

- Bəli, - dedi, - cavanlıqdan bir-birimizi tanıyırdıq. Sonra mən müharibəyə getdim, ağır günlər keçirdim. 1956-cı ilin iyun ayının 23-də Vətənə qayıtdım. Bakıda qatardan düşən kimi Yazıçılar İttifaqına gəldim. Qapıya çatıb bir nəfərdən soruşdum ki, görən Səməd burdadı? Gördüm kişi təəccüblə üzümə baxır. Köks ötürüb dedi:

- Yoxdu, qardaş, Səməd Vurğun iki aya yaxındı rəhmətə gedib.

Elə bil məni ildırım vurdu. Kor-peşman geri döndüm.

Məzahir Daşqının bu cavabından sonra susdum. Orada məndən böyüklər vardı, onların yanında kişini çox sorğu-suala tutsam ədəbsizlik olardı.

Məzahir Daşqın yeyib-içdikdən sonra cibindən meşin cildli cib dəftərini çıxardıb gecənin yarısına qədər şeirlərini oxudu. Xanəndələrin avazında qulaq asdığım bəzi şeirlərini indi onun öz dilindən eşidirdim.

**Bu məktubu alantək,**
**Biz tərəfə bir baş çək.**
**Çiçək çağırır çiçək.**
**Naz eləyir gül-gülə,**
**Göygölə gəl, Göygölə.**

**Təbiətin qüdrəti,**
**Yaradandır cənnəti,**
**Görməyə bu hikməti**
**Hacıkənddən aş belə,**
**Göygölə gəl, Göygölə.**

Mən bilən onun öz sağlığında kitabı nəşr olunmamışdı. Ancaq şeirləri aşıqların, xanəndələrin əzbərindəydi. Şair üçün bu da bir xoşbəxtlikdi. El yaşadanın kitab-dəftəri Haqqdandı. Ona zaval yoxdur.

***

O dövrdə bir-birinin ardınca çox dəyərli kitablar nəşr olunurdu. Müəlliflər sanki "Yazıçı" nəşriyyatının fəaliyyətə başlamasını gözləyirmişlər. 1981-1982-ci illərdə Atababa Hacıbabayevin tərtib etdiyi "Unudulmaz səhnə xadimləri", "Səhnə andı", Cabir Səfərovun "Teatr və dramaturgiya" (Bu kitabların nəşriyyat redaktoru olmuşam), Azərbaycan Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin əməkdaşları Ataxan Paşayevin, Rəşid Quliyevin və Maarif Teymurovun tərtibatında "Səhnədən keçən yollar" adlı teatr xatirələri işıq üzü gördü.

Professor Vaqif Vəliyev universitetdə mənim müəllimim olmuşdu. Bizə Azərbaycan şifahi xalq ədəbiyyatından dərs deyirdi. Yadımdadı, bizim şöbədə onun tərtib etdiyi "Ayrım bəzəmələri", "Bayatılar" topluları nəşrə hazırlanmışdı. Bu kitablar başqa-başqa vaxtlarda işıq üzü gördü.

Adını çox eşitdiyim Aşıq Hüseyn Cavanı da "Yazıçı" nəşriyyatında görüb tanış olmuşdum. Hətta ayaq üstə, sinəsində saz çəkdirdiyi bir şəklini də mənə bağışlamışdı. Nəşriyyatın fəaliyyətə başladığı vaxtdan bir il sonra - 1979-cu ildə "Bahar kimi" adlı kiçik bir şeir kitabı çap olunmuşdu. Uşaqlıqdan başı bəlalar çəkmişdi. Güneydə doğulub Quzeyə gəlmişdi, 1938-ci ildə yenidən Cənubi Azərbaycana qayıtmış, 1945-46-cı illərdə fədailərə qoşulmuşdu. Milli hökumət yıxıldıqdan sonra yenidən Şimali Azərbaycana qayıtmışdı.

O, 1946-cı ildə Cənubi Azərbaycanda bir əlində saz, bir əlində tüfəng səngərdən-səngərə atıldığından, hətta düşmənlə əlbəyaxa vuruşduğundan söhbət edərdi. Görünür, "Sən də unutma" şeiri o dövrün təsiri ilə yaranmışdı:

**Şah! Mən unutmadım, sən də unutma,**
**Sabunlu kəndiri, dar ağacını**
**Əgər mən unutsam, tarix unutmaz**
**Sinəsi dağlanan ana, bacını.**

Təsadüfi deyildir ki, Milli hökumət onu "21 Azər" medalı ilə təltif etmişdi. Söyləyirdi ki, Təbrizdə dövlət dram teatrı təşkil olunandan sonra aşıqlar ansamblı yaratmışdım. Buna görə də o vaxt Milli hökumət ona xalq artisti adı vermişdi.

Aşıq Hüseynin "Boylana-boylana" gəraylısını aşıqların avazında kim eşitməyib:

**Azad bir qız girib bağa**
**Gəzir boylana-boylana.**
**Xumar gözün sola-sağa**
**Süzür boylana-boylana.**

**İçib eşqin bulağından,**
**Gəzir Məcnun sorağından,**
**Tər qönçəni budağından**
**Üzür boylana-boylana**

Aşıq Hüseyn Saraclı da Gürcüstandan Bakıya gələndə bizim şöbəyə hökmən baş çəkərdi. Dastan söyləməkdə əvəzsiz sənətkar idi. Həmişə əynində qəlfeyi şalvarı ilə eyni rəngdə olan köynəyinin üstündən belinə enli qayış-kəmər bağlardı, kəmərdən də gümüş satıl sallanardı. Saçı çallaşmışdı, bığı isə qapqara idi.

Bir dəfə:

- Hüseyn dayı, - dedim, - saçınız ağarıb, amma bığınız qapqaradı, səbəb?

Halını da pozmadı, dərhal cavab verdi:

- Səbəb bığımın saçımdan on səkkiz yaş cavan olmasıdı.

Əzaflı Mikayıl da nəşriyyata tez-tez gələrdi. O dövrdə onun yaratdığı "Qoca qartal" aşıq havası dillər əzbəri idi.

**Qoca qartal, nə gəzirsən**
**Dağlar qoynunda, qoynunda.**
**Bala gördüm, anasının**
**Ağlar qoynunda-qoynunda.**

**Niyə qəlbin qaralıbdı,**
**Gül üstünü xar alıbdır.**
**Şamamalar saralıbdır,**
**Tağlar qoynunda-qoynunda.**

**Azaflıyam, dilə gəlməz,**
**Uçdu sonam, gölə gəlməz.**
**Keçən keçdi, ələ gəlməz,**
**Çağlar qoynunda-qoynunda.**

Əzaflı Mikayıl mənim yadımda ağır təbiətli, sakit, azdanışan bir insan kimi qalıb. Cavanlığında Sovet hökumətinin incitdiyi adamlardandı.

Oxucu heç də belə fikirləşməsin ki, nəşriyyat-poliqrafiya düzənində həmişə hər şey öz qaydasında, öz axarıyla gedib. Xeyr! Hər yerdə olduğu kimi bu sahədə də çəkişmələr, mübahisələr, umu-küsülər də olub. Burada da təvazökarlar, özündən müştəbehlər, narazılar, çılğınlar, qrafomanlar, qeyri-adi istedadlar vardı. Bir sözlə, yaxşılı-pisli, mənfili-müsbətli böyük bir insan mənzərəsi nəşriyyatlarda da özünü göstərirdi.

O dövrün nəşriyyatlarında nəşriyyat redaktoru əgər kitab tərtib edərdisə, yaxud hansısa kitaba kiçik də olsa, ön söz yazardısa, buna görə qonorar alardı. Ancaq bu hər ay baş tutan iş deyildi. O zaman mən yalnız nəşriyyatdan aldığım maaşla kifayətlənə bilməzdim. Buna görə də dövri mətbuatda hekayə və oçerklərlə çıxış edirdim, respublika radiosunun isə ştatdankənar daimi müəllifiydim. Hər ay radionun musiqi şöbəsində mənim verilişim efirə hazırlanırdı. Bu verilişlər bir qayda olaraq radionun həftəlik "letuçka"sında tərifləndi. İşdə vaxtım çox məhdud olurdu. Mən isə vaxtı bəhanə eləyib baş girləməyi sevmirdim. Nizami Gəncəvinin aşağıdakı misraları yaddaşımda daim diriydi:

**Çox iti zehinlər yatan oldular,**
**Axırda saxsı qab satan oldular.**

Ona görə də yaradıcı işlərimin çoxunu yuxusuz gecələrin hesabına görmüşəm.



Aşıq Hüseyn Cavan

Gördüyüm və görmək istədiyim işlərin çətinliyi orasındaydı ki, mən çeynənmiş, əprimiş mövzulardan qaçırdım, yeni mövzular isə adamdan axtarışlar, zəhmət tələb edirdi. Mən Azərbaycan radiosu üçün çoxlu portret-oçerklərlə yanaşı "Muğamlarımızın vəsfi", "Musiqi alətlərimizin vəsfi", "Teatr və musiqi" adlı silsilə verilişlər də yazmışam. Bu verilişlərin mətnini yazmaq üçün min illik Azərbaycan ədəbiyyatını oxumaq gərək idi. "Teatr və musiqi" silsilə verilişini yazmaq üçünsə səhnəyə qoyulmuş əsərlərdən, bu əsərlərə yazılmış musiqidən, bəstəkardan, teatr üçün yazılmış mahnıların ifaçılarından söhbət açmalıydım. Mən sadaladığım bu işlərin bir qismini fasilə vaxtı, işin axırında, istirahət günlərində görərdim.

Mən bu verilişlərdə səsləndirmək üçün Dövlət Səs Yazıları Arxivindən qrammofon vallarından keçmiş xanəndələrin səslərini köçürdüb Azərbaycan radiosuna gətirirdim. "Teatr və musiqi" verilişi üçün Məşədi İbad rolunun mahir ifaçısı Mirzəağa Əliyevin səsini radioya gətirəndə nə qədər sevinmişdim. Səsini, söhbətini lentə yazdırdığım bir çox sənətkarlar bu gün həyatda yoxdurlar, amma mənim sayəmdə söhbətləri, oxumaları lentlərin "yaddaşında" qalıb.

Yadımdadı, "Musiqi alətlərinin vəsfi" silsiləsindən olan növbəti verilişlərimdən birində ney alətindən söz açmışdım. Musiqi şöbəsinin müdiri Hacı Məmmədov duyuq düşər ki, radionun fondunda ney alətinin "səsi" yoxdur. Təcili bir nəfər tapıb ney alətində bir neçə musiqi nömrəsi yazdırmışdı. Beləliklə, neyin səsi ilk dəfə məhz mənim verilişimdə eşidilmişdi.

Bu verilişlərdə gətirdiyim poeziya nümunələri əsasən əruz vəznində olduğundan rejissor mətni səsləndirmək üçün rəhmətlik Həsən Əblucu dəvət edərdi. Mənim radio verilişlərimin böyük bir qismini Həsən Əblucla Əminə Yusifqızı səsləndirib.

Mən bəzən bu verilişlərin montajında iştirak etdiyimdən ləngiyər, işə gecikərdim. İşin tərsliyindən çox vaxt direktorumuz Əjdər Xanbabayevlə elə liftdəcə qarşılaşardıq. Təbii ki, mən gecikdiyim üçün sıxılardım. Əjdər müəllim isə bir söz deməz, qabaq-qənşər gəlməyimizə baxmayaraq özünü görməzliyə vurub yoluna davam edərdi.

Əlbəttə, burada radio-televiziya ilə bağlı xatirələrimi yazmaq fikrim yoxdur. Bu mövzuya toxunmağımın səbəbi var. Çünki edəcəyim söhbətin bir ucu radioya və 1982-ci ildə, iyunun 3-də, saat 16:15-də Respublika radiosunda səslənmiş "Yadigar səslər" adlı verilişimlə də bağlıdı. Yeri gəlmişkən onu da deyim ki, bu verilişdə valları qızıl pulla alıb sındırmış milyonçu Mirseyid Mirbabayevin oxuduğu "Simayi-Şəms" muğamı və "Ay bəri bax" xalq mahnısı da səslənmişdi. Valın üzünü isə tarzən Bəhram Mansurovdan alıb köçürtmüşdüm.

Mən 1981-ci ilin iyun ayından etibarən klassik ədəbiyyat və folklor şöbəsinin redaktoru idim. 1982-ci il ildə həm də "Yazıçı" nəşriyyatı Həmkarlar İttifaqının sədri seçilmişdim.

Bir gün nəşriyyatın direktoru Əjdər Xanbabayev məni yanına çağırdı. Direktorun kabinetinə girəndə gördüm tək deyil. Onun qarşısında iri cüssəli, iri əlli bir kişi oturmuşdu, nə barədəsə söhbətləşirdilər. Əjdər müəllim gülümsəyərək mənə müraciət etdi:

- Firidun bəyi tanıyırsanmı?

- Şəxsən tanış deyilik, amma kitablarını oxumuşam, - dedim.

- Bəy istəyir ki, onun kitabının redaktoru olasan. Sənin verilişindən xoşu gəlib.

Yuxarıda dediyim kimi, həmin ərəfədə radioda "Yadigar səslər" adlı verilişim səslənmişdi. Veriliş yaxşı əks-səda doğurmuşdu. Firidun bəy məhz həmin verilişi nəzərdə tutaraq:

- Yaxşı veriliş idi, - dedi. - Savaba batmısan, neçə müğənninin səsini bizə qaytardın.

- Təşəkkür edirəm, - dedim.

Firidun bəy bir qədər ötkəm səslə cavab verdi:

- Əmioğlu, mənə təşəkkür-zad lazım deyil.

Mən o anda onun səsindəki ötkəmliyin - bozluğun səbəbini anlamadım. Ancaq onu daha yaxından tanıyandan sonra gördüm ki, sərtlik, ötkəmlik Firidun bəyin xarakterindədir.

Bir qədər ordan-burdan danışdıqdan sonra Firidun bəyin 625 səhifədən, 177 şəkildən ibarət olan "Azərbaycan xalq musiqiçiləri" kitabının əlyazmasını qoltuğuma vurub otaqdan çıxdım.

Kitabı çapa hazırlayarkən biz çox tez-tez görüşürdük. Hətta o, Hüseynqulu Sarabski və Aşıq Abbasqulu haqqındakı oçerklərini mənim təklifimlə yazmışdı. Başqa müəlliflərdən fərqli olaraq, hamı ona "Firidun bəy" - deyə müraciət edirdi. Özünün dediyinə görə ona Firidun adını ailələrinə yaxın olan görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərlinin xatirəsini əziz tutan atası Məhəmməd kişi vermişdi.

Öz zamanına görə Firidun bəyin söhbətləri, tarixi keçmişimiz, müasir dövrümüz, xüsusən ana dilimizin türk dili olmasıyla bağlı fikirləri çox cəsarətli və sərt idi. Onun mədəniyyətimizlə, musiqimizlə bağlı yığıncaqlardakı çıxışı həmişə irad və tənqid üstündə köklənərdi. Bu da bir çoxlarına xoş gəlməzdi. Lakin Firidun bəy də öz fikrini dəyişən adam deyildi.

**(ardı gələn şənbə sayımızda)**